# OLUMLAR VAR, ÖLUMLƏR VAR

## *Yazıçı Şəfəq Nasirə təskinlik məktubu*



Nizaminin ölüm xəbəri - acı xəbəri. Onsuz da bütün ölümlərin xəbərində acılıq var. Ancaq acılıqlar hərənin içindən, varlığından bir cür, dünyasından fərqli küləklərlə keçir.

...Əzizimiz Şəfəq xanım, qardaşın Nizaminin ölüm xəbəri də bizə acılığını gətirən bir külək kimi gəldi. İndi təskinlik üçün nə desək də kara gəlməz, vecə gəlməz. Çünki bu acılığın doğmaların ruhundan, varlığından keçən küləklərin yandırıcı tərəfi elə o doğmaların özünə daha çox bəllidir necə yandırır, necə keçir.

Şəfəq xanım, siz bəlli bir nəslin - Azərbaycanın mənəvi mühitində ədəbi-tarixi xidmətləri olmuş Məmmədəli Nasirin - Molla Nəsrəddinçi publisistin məşhur "Lək-lək" müəlliflərindən birinin nəsil davamçısı, varislik daşıyıcısı kimi tanınırsınız. Atanız Oktay müəllim amansız Stalinizmin qurbanı kimi İrəvandan bugünkü Ermənistan adı ilə tanınan qurama ölkədən, tarixi Azərbaycan torpaqlarından ailəsilə, nəslilə, tayfası ilə repressiya olunanlardan biridir.

Sizin ailənin keçdiyi yol, əslində, Azərbaycan xalqının tarixi faciəsinin yaddaşlardan silinməyən bir yoludur.

Bəlkə də elə bu tarixi dərdlər, bu faciələr M.Nasir nəvəsi kimi sizin varlığınızda, ruhunuzda ağrılı bir yol açıb. Elə buna görə də cəfakeş bir publisist, istedadlı bir yazıçı kimi parlamısınız. Deyirlər ki, hansı yazıçı özünü yazırsa, o, cəmiyyətə daha çox yaxıqn olur. biz də sizin yaradıcılığınızda şəxsi həyatınızdan gələn motivləri yaxşı görürük. ancaq siz istedadınızla bu şəxsi motivləri sözün həqiqi mənasında ictimsailəşdirə, Azərbaycan xalqının mənəvi mühitinə şamil edə bilmisiniz. Bacınız - Həyatdan vaxtsız getmiş Fatma haqqında, ataananız haqqında yazdıqlarınız, ən başlıcası, Babanız Məmmədəli Nasiri tədqiq edən monoqrafiyanızla göstərmisiniz ki, bu xalq necə böyük faciələr yaşayıb.

40-cı illərin axırından başlayaraq Ermənistandan deportasiya olunanların faciəli yolu sizin də ailədən keçib. Atanızın, ananızın necə böyük çətinliklərə qatlaşaraq Beyləqanda özlərinə isti yuva qurmaq cəhdləri sizin kitablarınızda, yaradıcılığınızda kifayət qədər öz əksini tapıb.

Bizə elə gəlir ki, nəslinizə məxsus vaxtsız ölümlərin hamısı elə bu deportasiya fayiələri ilə bağlıdır.

Babanız Məmmədəli Nair Molla Nəsrəddinçi kimi tanınanda elə düşünürdü ki, işıqlı bir gələcək uğrunda mübarizə aparır. Amma o da yerindən, yurdundan didərgin olmağın acılığını yaşayaraq bu dünyadan getdi.

Elə bacınızın da vaxtsız ölümünün kökündə uşaqlıq dövrünün sarsıntıları az təsirli olmayıb.

Yeganə qardaşınız Nizaminin həyatdan kifayət qədər ömür yaşamamış getməsi də elə o acı günlərin bugünkü acı sonluğundan xəbər verir.

Nizami yaxşı ata, ləyaqətli qardaş kimi sizin dilinizdə və yaradıcılığınızda kifayət qədər obrazlaşıb. Təskinlik üçün əsas var; Şəfəq Nasir kimi biry acıçının yaradıcılığında Azərbaycan xalqının taleyini daşıyan bir ailənin həyatı əbədi yaşayacaq.

Neyləmək olar, həyatın axarını dayandırmaq kimsənin əlində deyil. Amma həyatın hər gününü bütün acılıqları və şirinliklərilə yazmaq yazıçı missiyasıdır. Biz inanırıq ki, siz bundan sonra da ruhdan düşməyəcək, qələminizi xüsusi bir gün və ilhamla işlədəcəksiniz.

İndi ömrunuzun kamil yaradıcılıq çağlarını yaşayırsınız. Düşünmək olar ki, elə bu günün təəssüratı ilə yeni, xatirə ovqatlı bir əsərin işığı ruhunuza yol tapmaqdadır.

Bu yerdə "Beyləqanın güllü yazı" kitabınızı xatırlatmaq yaxşı olardı. Həmin kitabda nəslin davamçısı olacaq uşaqların taleyi kifayət qədər görünür. İndi o uşaqların hər biri həyatın ən müxtəlif tərəflərində öz güclərinə uyğun görunməkdədirlər.

Zənnimizcə, Nizami də və onun övladları keçmişi, yəni ulu nəsil və gələcəyi yeni nəsil özünün bədii salnaməsini sizin qələminizdə yaşarılıq haqqı alacaq.

Nizami haqqında çox söhbətlər etmisiniz. Onun qayğıkeş bir qardaş olduğunu, bacılarına necə doğma, yanımlı bir münasibət göstərdiyini dəfələrlə demisiniz. İndi o dediklərinizi yazıya gətirmək, sözə gətirmək vaxtıdır.

Atam rəhmətlik Zal Əziz oğlu deyərdi ki, sözün var saxla sinəndə, deyərsən demində...

İndi bundan sonra sözü deməyin dəmi gəlir.

Onu da deyim ki, sizin yazacağınız nə varsa, hamısı Vətənin tarixi taleyinin hansısa bir tərəfinə işıq salır, hardasa olan bir kölgəni vurub dağıdır, qaranlığı nura boyayır.

Ölümlər var, olumlar var...

Olumlarla yaşamaq daha üstündür.

*Ə.R.XƏLƏFLİ*
*14.09.2021*